# Göyərçin

№2 2002

ISSN-0207-4710



*Rafiq YUSİFOĞLU*

## DİLİMİZİN SÖZLƏRİ

Elin də tarixi var,
Dilin də tarixi var.
İgid odur, xalqının
Keçmişindən
Söz aça.
Dil - tükənməz xəzinə,
Məna - kilid,
Söz - açar.
Söz ləpədir, dalğadır,
Dil ümmandır, dənizdir.
Dilimizin sözləri
Müqəddəsdir, əzizdir.

Sözün hər çalarında
Həyatın sehri vardır.
Söz babaların bizə
Qoyduğu yadigardır.
Halal ocağımızda
Közü qorumalıyıq.
Sözü yaşatmalıyıq.
Sözü qorumalıyıq.
Kim ki sözü unutdu,
O, həyatda uduzdu.
Söz - dil kəhkəşanında
İşıq saçan ulduzdu...

## HERİK ŞUMU

Payızda kotanla
Torpağa salıb iz,
Bu yeri şumlayıb,
Qoymuşuq dincə biz.
Herik şum qış boyu
Dincini alacaq.
Baharda səpinə
Yararlı olacaq.

## SEVİNC

Boş-boşuna axtarmır
Adamı sevinc özü.
Bəlkə də "sev" sözündən
Yaranıb sevinc sözü?
Dostla birgə ağlayıb,
Birgə gülməsən gərək.
Sevinə bilmək üçün,
Sevə biləsən gərək...

## QƏZİL

- Fırlatdım cəhrəni,
Əyirdim,
Nazildi.
Ancaq bu yun deyil.
- Bəs nədi?
- Qəzildi.
- Keçinin tükünə
Qəzilmi deyirlər?
- Hə...
- Ondan corabmı

Toxuyub geyirlər?
- Yox. -
Nənəm gülərək
Başını bulayır:
- Qəzil yun deyil ha,
Adamı dalayır.
Ancaq biz onun da
Xeyrini görürük.
Qəzildən ya sicim,
Ya çatı hörürük.



## SİCİM VƏ ÇATI

Onların ikisi də
Qəzildən hörülür, bax:
Sicim upuzun olur,
Çatı gödəkdir ancaq.
Odun, ot yükləyirlər
Sicimlə at-ulağa.

Çatı gərək nerqarın
Buzov ilə balağa. -
Kim onların başını
Çatılayır, bağlayır,
Dopdolu məmələrdə
Özünə süd saxlayır...

## ƏRSİN, OXLOV VƏ SAC

- Kim bilir, cavab versin:
Nəyə lazımdır ərsin?
- Bunu bəbə də bilir,
Çətin nə var ki, burda?
Ərsinlə doğrayırlar
Xəmiri xırda-xırda.
Kəndimizdə görmüşəm
O balaca dəmiri.
Nənəm onunla kəsib,
Kündələyir xəmiri.
- Bəs onda oxlov nədi?
- Oxlov, - kündəni yayan.

- Düzdür, son sualıma
Cavab ver görüm, oğlan?
Söylə görüm sac nədi?
- Sac çörək bişirəndi.
Doğru cavablarıma
Bir yuxa düşür, indi?
- Düşür.
- Onda tez elə,
Nənənin yanına qaç.
De ki, xəmir eləyib,
Ocaq üstə assın sac...

## YARITMIRSAN DEYƏRLƏR

Tapşırıblar Sevincə
Bacısına göz ola.
Nigar, balaca Nigar
Yıxılmışdı az qala.
Səsə gəldi Xatirə,
Birdən qıcandı dişi.

Acıqlandı:
- Sevinc, sən
Yaratmırsan bir işi.
Anası gülümsədi,
Qızım, hirslənmə hədər.
Yaratmırsan yox, burda
Yarıtmırsan deyərlər...

## SƏLLİMİ

- Daha getmir naxıra,
Vurğun vursun Səlimi.
Neyləyək, inəkləri
Ötürürük səllimi.
- Səllimi nədir, nənə?
- Səllimi? - Özbaşına.
Kəndin dana-buzovu
Qalıb başlı-başına.

## YATAR

Bu torpağın qoynunda
Nə qədər ne'mət yatar.
Yeraltı xəzinəyə
Babalar deyib: - Yatar.
İnsan xəzinə tapsa,
Arzuya, kama çatar.
Uyuyan "gözəllər"i
Yuxusundan oyadar.
Xərclədikcə onları
Minarələr boy atar.
Şəhər salar, düzülər
Binalar qatar-qatar...

Rəssam *MƏTANƏT*